# SƏYYADOV MEHMAN QƏZƏNFƏR OĞLU



21 noyabr 1972-ci ildə Qərbi Azərbaycanın Vardenis (keçmiş Basarkeçər) rayonunun Günəşli kəndində anadan olmuşdur. Yeddinci sinfə qədər doğma kəndlərində oxumuş, separatçı qüvvələrin azərbaycanlıları kütləvi şəkildə ata yurdlarından deportasiya etmələri nəticəsində ailəsi ilə birlikdə Samux rayonuna gəlmişdir. Sovet ordusu sıralarına çağırılan M.Səyyadov 6 ay Sverdlovsk vilayətində xidmət etdikdən sonra vətənə qayıtmışdır. 1991-ci ildə "Azərbaycan Qarabağ" könüllü müdafiə batalyonuna üzv yazılaraq cəbhəyə yollanmışdır. Şuşa şəhərinin bir sıra kəndlərinin müdafiəsində qəhrəmanlıq nümayiş etdirmişdir. Kosalarda, sonra isə Nəbilər kəndində döyüşən Mehman döyüş yoldaşları ilə bir yerdə düşmənin 70-ə yaxın canlı qüvvəsini və bir neçə hərbi texnikasını məhv edir. 1992-ci il mayın 9-da Nəbilər kəndinin müdafiəsi zamanı qəhrəmancasına həlak olmuşdur. Qəhrəman döyüşçümüz ölüm anında belə onlarla erməni yaraqlısını da öldürməyə müvəffəq olub. Təəssüflər olsun ki, cəsədi döyüş meydanında qalıb. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Səyyadov Mehman Qəzənfər oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.